## Ümummilli lider Heydər ƏLİYEV:

# Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir

*İkinci Dünya müharibəsi doğma Azərbaycanımızın tarixində silinməz izlər qoyub. Dünyanı fəth etmək, başqa xalqları əsarət altında saxlamaq istəyən faşist Almaniyası ilə amansız mübarizə gedirdi. Mübarizə sovet xalqları üçün xilaskar, ədalətli, Vətən müharibəsinə çevrildi. Bu səbəbdən İkinci Dünya müharibəsi ümumxalq xarakteri daşıyırdı. Sovet İttifaqının bütün xalqları, o cümlədən xalqımız Vətən uğrunda gedən müharibəyə istər canlı qüvvəsini, istərsə də təbii sərvətlərini səfərbər etmişdi.*





Bu müharibədə cəsarəti, qorxmazlığı və qəhrəmanlıqları ilə seçilən oğul və qızlarımızın sayı-hesabı yoxdur. Onların şücaəti dillərə dastan olaraq gənc nəsillərə əsl vətənpərvərlik məktəbinə çevrilibdir. Belə oğullarımızdan biri olan, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anım mərasimi təntənəli şəkildə keçirildi. Anadan olmasının 109-cu ildönümünə həsr olunan anım mərasimində yaşanan izdiham onu deməyə əsas verir ki, xalqımız qəhrəmanlarını, şəhidlərini heç vaxt unutmur, onların xatirəsini ehtiramla yad edir.

Həzi Əhəd oğlu Aslanov 22 yanvar 1910-cu ildə Lənkəran şəhərində anadan olub. 13 yaşında ikən atası Əhəd Aslanov vəfat etdikdən sonra atasının işlədiyi Lənkərandakı kərpic zavodunda işə düzəlir. Bir il sonra gənc Aslanov komsomolun xətti ilə Zaqafqaziya Hərbi Hazırlıq məktəbinə göndərilir. 1929-cu ildə Leninqrad Süvari məktəbinə daxil olan Həzi 1931-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub Kotovski adına 3-cü Bessarabiya süvari diviziyasının 15-ci alayına taqım komandiri vəzifəsinə təyin edilir. 1941-ci ilin sentyabrın sonunda Moskvaya çağırılır, oradan da Krıma, 55-ci Əlahiddə Tank briqadasının komandir müavini vəzifəsinə göndərilir. 22 dekabr 1942-ci ildə 55-ci Əlahiddə Tank briqadasının komandiri olan və podpolkovnik rütbəsini çiynində daşıyan Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür.

1944-cü il martın 13-də SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Həzi Aslanov general-mayor rütbəsi ilə təltif olunur. General 24 yanvar 1945-ci ildə Latviyanın Liepay rayonunda gedən döyüşdə həlak olur. O, Belarusiya cəbhəsindəki şücaətinə görə 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilsə də, SSRİ hərbi rəhbərliyində təmsil olunan, milliyyətcə erməni olan general İ.Baqramyan buna mane olur. General-mayor Həzi Aslanova ölümündən 47 il sonra, 1991-ci ildə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilir.

Əfsanəvi komandirin abidəsinin önünə əklillərin qoyulması ilə başlayan anım mərasimində xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



Tədbiri açıq elan edən Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, ehtiyatda olan polkovnik Abdulla Qurbani Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun mənalı həyat və şərəfli döyüş yolundan danışaraq qeyd etdi ki, o Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biridir. "Azərbaycan oğullarının Böyük Vətən müharibəsi illərində göstərdiyi igidliklərin, qəhrəmanlıqların üzə çıxarılmasında, əbədiləşdirilməsində və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyevin rolu danılmazdır. Ümummilli Lider çalışırdı ki, bu qəhrəmanlıq tarixi gənclərə çatdırılsın. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun qəhrəmanlığına da Azərbaycan xalqına başucalığı gətirəcək bir dəyər kimi baxırdı, onun igidlikləri ilə özünün də qürur duyduğunu və bu qəhrəmanlığın əbədiləşdiriləərək gələcək nəsillərə çatdırılmasının zəruriliyini bildirirdi. İlk növbədə Heydər Əliyev Azərbaycan xalqının Böyük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqların əbədiləşdirilməsini, eyni zamanda bu müharibədə yazılmış qəhrəmanlıq tarixinin nəsillərdən-nəsillərə ötürülməsini ümummilli bir vəzifə hesab edirdi. Həzi Aslanovun qəhrəmanlığından danışarkən Heydər Əliyev onun adını daşıyan hərbi məktəbdə oxuyan kursantların hamısını Həzi Aslanova bənzəməyə, hər bir kursantı Vətəni Həzi Aslanov kimi sevməyə, hərbi ixtisasları Həzi Aslanov kimi mənimsəməyə çağırırdı. Ümummilli Lider yalnız Həzi Aslanovun deyil, ümumən Böyük Vətən və İkinci Dünya müharibələri cəbhələrində igidlik göstərmiş, Azərbaycanın qəhrəmanlıq ənənələrini davam etdirmiş şəxslərin hamısının təcrübəsindən və mübarizliyindən müstəqil Azərbaycan Ordusunun qurulmasında və möhkəmləndirilməsində istifadə edilməsini əhəmiyyətli sayırdı. Bu ənənə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir."

Polkovnik Aydın Əyyubov qeyd etdi ki, görkəmli sərkərdə general-mayor Həzi Aslanov kimi qəhrəmanlarımızın döyüş yolu hər bir şəxs, hər bir Azərbaycan vətəndaşı üçün nümunədir. Hələ qədim zamanlardan Vətənimiz üçün canlarını sipər edərək şəhidlik zirvəsinə yüksələn igidlərimizin heç birini unutmuruq, onların ruhunu hər zaman böyük fəxrlə yad edirik. Bizlər də onların əmanət etdikləri Vətən torpaqlarının keşiyində inamla dayanırıq. Polkovnik Aydın Əyyubov onu da vurğuladı ki, əvəzsiz general H.Aslanovun döyüş yolunun öyrənilməsinin gənclərimizin vətənpərvər ruhda formalaşmasında böyük əhəmiyyəti vardır. Vətəninə bağlı, Vətənini sevən gənclərimiz gələcəyin qalib əsgərləridirlər. Bütün bunlar işğal altında olan torpaqlarımızın azad olunması baxımından da önəmlidir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirdi ki, xalqımız daima Vətən və torpaq uğrunda, xalqımızın azadlığı naminə canlarından keçən şəhidlərimizlə qürur duyur. "İkinci Dünya müharibəsinin gedişində strateji üstünlüklərə malik olan "dəmir atlar" günümüzün ən təsirli döyüş vasitələrindəndir. Tank qoşunları general-mayoru Həzi Aslanov tankın imkanlarını hesablamaqla çətin tapşırıqların öhdəsindən gələrək böyük uğurlara imza atıb. Ancaq Həzi Aslanovdan sonrakı dövrlərdə də tankçılarımız qəhrəmanlıqları ilə dillərə dastan oldular. Aprel zəfərində də tankçılarımızın rolu danılmazdır. Onlar işğalda olan torpaqlarımızın düşmən tapdağından azad edilməsində, üçrəngli bayrağımızın yenidən dalğalanmasında misilsiz qəhrəmanlıqlar göstərmişlər. Bugünkü izdiham bir daha sübut edir ki, xalqımız hər zaman Vətən uğrunda canlarını sipər edən şəhidlərimizin xatirəsini böyük ehtiramla yad edib, edir və həmişə edəcək".

"Dədə Qorqud" milli fondunun rəhbəri Eldar İsmayılov çıxışında bildirdi ki, bu gün ordumuzun əsası 20-ci əsrin əvvəlində qoyulsa da, ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra formalaşmağa başladı. "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında artıq bizim qürur duya biləcəyimiz ordumuz var. Artıq bizim müstəqil Azərbaycana məxsus hərbi hissələrimiz, generallarımız, zabitlərimiz, qəhrəman döyüşçülərimiz, əsgərlərimiz var. Onlar tarixən qəhrəmanlıq nümunəsinə çevrilmiş Həzi Aslanov kimi oğullarımızın ənənəsini bu gün də yaşadırlar."

Anım tədbirində çıxış edənlər Həzi Aslanovun döyüş yolundan bir çox epizodları danışaraq onun nə qədər güclü bir döyüşçü olduğunu vurğuladılar. Cəsur döyüşçünün əsl insan, komandir, döyüş meydanında əvəzolunmaz sərkərdə kimi gənc nəsil üçün vətənpərvərlik məktəbi olduğunu dedilər. Həmçinin Böyük Vətən və İkinci Dünya müharibəsi, istərsə də Qarabağ müharibəsi iştirakçılarına, veteranlara, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Xatirə mərasiminin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına təşəkkür etdilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**